Qloballaşmanın surətlə getdiyi dövrdə ETT inkişafı fonunda ümumdünya maliyyə arenasında banklararası sıx münasibətlərin inkişafı müşahidə olunur. Belə ki, gözlənilməyən ən cuzi hadisə belə ona təsir edə bilir. Banklar müəyyən öhdəliklər müqabilində əməliyyat həyata keçirən qurum olduqlarından onların iqtisadi, sosial və siyasi təsirlərə həssas olması normaldır. Bank tarixinə nəzər salsaq görərik ki, dövrün ayrı-ayrı mərhələlərində bir sıra hadisələr bankları müəyyən risklərə məruz qoymuş və bu risklərdən qorunmaq üçün Banklar tərəfindən tədbirlər planı hazırlanmışdır.

**Açar sözlər: Covid- 19, pandemiya, iqtisadiyyatda resessiya.**

**Dördüncü Sənaye İnqilabı: Şəhər Səviyyəsində Perspektivləri və Problemləri**

**Reşad Əbilzadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Bu məqalə çərçivəsində dördüncü sənaye inqilabına fokuslanaraq sənaye inqilabının tarixindən bəhs edilmiş, dördüncü sənaye inqilabı ilə ortaya çıxan texnoloji yeniliklər qeyd edilmişdir. Dördüncü sənaye inqilabının çoxtərəfli və çoxsəviyyəli inkişaf dinamikasına sahib olan bir anlayış olduğu diqqətə alınaraq onun texnoloji inkişafla birlikdə şəhərlərdə olan təsirlərini öyrənmək məqsədi daşıyan bu məqalədə hərəkətverici gücə çevrilən və gələcəyin şəhər modeli şəklində təqdim olunmağa başlayan ağıllı şəhərlərdən bəhs edilmiş və onun əsas komponentlərinə yer verilmişdir. Ağıllı şəhər və onun komponentləri, bu modeli müxtəlif məqsədlərə görə tətbiq edən şəhərlərlə bağlı nəzəri biliklər müxtəlif mənbələrə istinad edilərək mətn analizi yolu ilə tədqiq edilmiş, dördüncü sənaye inqilabı və ağıllı şəhər anlayışı ilə bağlı faktlar sistemləşdirilmiş, şəhər səviyyəsində ortaya çıxan nəticələr tədqiq edilmiş, iqtisadi, idaretmə, sosial istiqamətdə ortaya çıxan perspektivlər və problemlər geniş şərh edilərək ölkə nümunələrinə də yer ayrılmışdır. Deduksiya metodu əsasında məqalədə nəzəri nəticələrə yer verilmiş və təkliflər qeyd edilmişdir.

**Açar sözlər: Dördüncü Sənaye İnqilabı, ağıllı şəhər, Azərbaycan, texnologiya.**

# Azərbaycanda Sosial Media Reklamlarının Plansız Satınalma Davranışına Təsirində Sosial Media Şəbəkələrinin Rolu

**Gülnar Məmmədova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Texnologiyanın inkişafı və artan rəqabət mühiti qısa zamanda minimum xərclə geniş kütlələrə çatmağa imkan verən sosial media platformalarından istifadəni həm istehlakçılar, həm də müəssisələr nöqteyi nəzərindən artırmışdır. Sosial media reklamları sosial medianın tərkib hissəsi olmaqla geniş kütlələrə təsir edə bilən marketinq alətidir. Digər tərəfdən, gün keçdikcə fərqliləşən bazar tendensiyaları istehlakçıların satın alma qərarlarında dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər, satın alma qərarlarını öncədən planlı şəkildə verən istehlakçıların, bir stimula məruz qaldıqdan sonra plansız bir şəkildə gerçəkləşdirmələrinə səbəb olmuşdur. Bu stimuldan sonra həyata keçirilən satın alma qərarları marketinq sahəsində plansız satınalma qərarı olaraq adlandırılmaqdadır. Bu tədqiqatın məqsədi Azərbaycanda sosial media şəbəkələrində paylaşılan reklamların istehlakçıların plansız satınalma davranışlarına olan təsirini müəyyənləşdirmək və bu təsirinin sosial media növündən aslı olub-olmadığını tədqiq etməkdir. Azərbaycanda yaşayan istehlakçıların sosial media reklamlarına yönəlik fikirlərinin plansız satınalma davranışına olan təsirini və bu təsirdə demoqrafik göstəricilərinin rolunun olub olmadığını ortaya qoymağı hədəfləyən bu tədqiqatda fərdlərin sosial media reklamlarına qarşı münasibətləri və sosial media reklamlarının satınalma davranışına olan təsiri təhlil edilmişdir. Sorğu metodu vasitəsilə toplanılan məlumatlar "SPSS 24" statistik proqramı vasitəsilə təhlil edilmiş və tədqiqatın aparılması üçün qarşıya qoyulmuş suallara cavab tapılmışdır. Əldə edilən nəticələrə əsasən Azərbaycanda sosial media reklamları istehlakçıların plansız satınalma davranışlarına təsir edir. Sosial media şəbəkələrinin isə bu təsirdə mövcud olan payı fərqləndirilmir.

**Açar sözlər: Sosial media reklamları, plansız Satınalma, sosial şəbəkə.**

# Modern Labor Market: Problems and Solutions

**Irada Nabiyeva**
**Azerbaijan State University of Economics**

**Abstract**

The labor market is traditionally understood as the relationship between employers and employees, is a market exchange between an employee and an employer. In this case, the employer offers a monetary reward in the form of wages, in exchange for the performance of certain functions by the employee. The modern employment market is tightly controlled by employers. Employers, on the other hand, objectively depend on the trends of a dynamically developing market economy. The labor market is an important component of the economic and social life of society. It is the sphere of labor that is becoming key for the growth of the domestic economy, increasing its efficiency and the level of competitiveness. Currently, the labor market is socially and economically unstable, therefore, the well-being of the population depends on how developed and flexible it is. An acute problem of social significance is unemployment and a parallel shortage of qualified labor. In order to navigate the labor market, it is necessary to know what specialists of what professions are needed, what requirements are imposed on them, what kind of remuneration is offered.

**Keywords: Labor market, employment, competitiveness, remuneration.**

## Qarabağın İqtisadi İnkişafinda "Ağıllı Şəhər" və Süni İntellekt İmkanlarının Dəyərləndirilməsi

**Samir Rzayev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Son illər elm və texnologiya dünyasında aktual məsələlərdən biri olan süni intellekt dövlət idarəetməsində də öz əhəmiyyətini artırıb. Süni intellekt imkanları artıq ayrı-ayrı müəssisə və ya qurumların idarəetmə vasitəsi deyil, həm də dövlət idarəetməsinə və dövlətlərarası münasibətlərə təsir edən vasitədir. Bu vasitələrdən səmərəli istifadə etmək və nəticə əldə etmək üçün hər bir ölkə süni intellekt sahəsində planlı və sistemləşdirilmiş fəaliyyət göstərməlidir. 2020-ci ildə İkinci Qarabağ müharibəsi Azərbaycan Respublikasının şanlı qələbəsi ilə başa çatdı. Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev öz çıxışında bildirib ki, işğaldan azad edilmiş ərazilərin bərpası prosesində süni intellekt vasitələrindən olan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarından istifadə ediləcək. Ağıllı şəhər və ya ağıllı kənd layihələri son illər dünyanın bir sıra ölkələrində lokal idarəetmədə tətbiq edilən və sınanılan layihələrdəndir. Belə ki, Sinqapur, Norveç, Finlandiya, Amerika Birləşmiş Ştatları, İspaniya, Çin, Cənubi Koreya, Niderland kimi ölkələrdə bu layihələrin praktiki nümunələri vardır. Ümulikdə süni intellekt sahəsində olduğu kimi ağıllı şəhərlərə yanaşmada da diqqət edilməli əsas prinsiplər vardır. Qarabağın postkonflikt zonası olması tətbiq ediləcək layihənin əhəmiyyətini artırır.

**Açar sözlər : Süni intellekt, rəqəmsal hökümət, ağıllı şəhər, Qarabağın inkişafı.**

# Faizsiz Maliyyə Bazarlarında İdarəetmə Prinsiplərinin Yeri və Rolu

**Pərviz Rüstəmov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məlum olduğu kimi, faizsiz maliyyə bazarlarında idarəetmə prinsiplərinin yeri və rolu aktuallıq kəsb etməkdədir. Müasir idarəetmə sistemində dünya alimləri faizsiz maliyyə bazarlarında idarəetmə prinsiplərinin elmi-nəzəri yanaşmalarını araşdırılmışdır. Məqalədə dünya alimlərin faizsiz maliyyə bazarlarında idarəetmə prinsiplərinə verdikləri töhfələri üzə çıxartmaq və tədqiq etməkdir. Məqalənin tədqiqat metodologiyası – faizsiz maliyyə bazarlarında idarəetmə prinsiplərinin dünya alimlərinin elmi yanaşmalarını sistemli və kompleks araşdırmaqdır. Çünki bu yanaşmalar faizsiz maliyyə bazarlarının idarəetmə prinsiplərinin təşkili, idarəetməsi və inkişafına çox böyük təsir göstərməkdədir. Məqalənin praktiki əhəmiyyəti - əldə edilmiş nəticələri faizsiz maliyyə bazarlarının idarə edilməsində prinsipləri tətbiq etməkdir. Bütün bunlar faizsiz maliyyə bazarlarının idarəetmə prinsiplərini innovasiyalı yanaşmasına, bu sahənin sistemli inkişafına, davamlı və dayanıqlı fəaliyyətinə səbəb olacaqdır. Məqalənin tədqiqat nəticələri – faizsiz maliyyə bazarlarının idarə edilməsinin təkmilləşdirilməsi, bu sahədə konseptual nəzəri yenilikləri özündə əks etdirir. Məqalənin tədqiqatın nəticələri faizsiz maliyyə bazarlarının idarə edilməsi prinsiplərinə tətbiqinə, həmin sahənin təkmilləşdirilməsinə və inkişafına xidmət göstərməkdədir. Məqalənin tədqiqat orijinallığı və elmi yeniliyi – ondan ibarətdir ki, faizsiz maliyyə bazarlarında idarəetmə prinsiplərinin dünya alimlərinin elmi yanaşmalarına əsas elmi-nəzəri istiqamətləri tədqiq edilmiş, bu sahənin elmi-praktiki istiqamət kimi formalaşması barədə nəzəri-praktiki baxışlar, nəzəriyyələr araşdırılaraq ümumiləşdirmələr edilmiş və onun zəruri elmi aspektləri araşdırılmışdır. Bu nöqteyi nəzərdən elmı-tədqiqat işi faizsiz maliyyə bazarlarının idarə edilməsində elmi yanaşmaların tədqiqi baxımdan təqdirəlayiq hesab edilə bilər.

**Açar sözlər: Faizsiz maliyyə bazarlarında idarəetmə prinsipləri, İslam maliyyə menecmentinin prinsipləri, İslam maliyyə sistemi, faizsiz maliyyə bazarları, faizsiz maliyyə bazarlarının idarə edilməsi.**

# Korporativ Mədəniyyətin İdarəolunmasında Aktual Problemlər və Müasir Yanaşmalar

**Eltun Tağıyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə korporativ mədəniyyəti idarəçiliyi yeni müasir metod və yanaşmalar da araşdırılır. İqtisadiyyatının və cəmiyyətin inkişafının modernləşdirilməsinin hazırkı mərhələsində korporativ mədəniyyətin formalaşması və idarə edilməsi məsələləri xüsusi rol oynayır. Korporativ mədə- niyyət, şirkətin fəaliyyətinin bütün səviyyələrində fəaliyyətlərin koordinasiyasını təyin edən danışılmamış qaydalar və təlimatlardır. Cəmiyyətin inkişafının və iqtisadiyyatının modernləşdi- rilməsinin hazırkı mərhələsində korporativ mədəniyyətin formalaşması və idarə edilməsi məsələləri xüsusi rol oynayır. Korporativ mədəniyyət, şirkətdə paylaşılan ən ümumi və sabit dəyərlər, fikirlər, hədəflər, prinsiplər və davranış qaydaları sistemi olmaqla, təşkilatın xarici mühitə daha təsirli uyğunlaşmasına, əlverişli xarici əlaqələrin qurulmasına kömək edir. Təşkilatlardakı mövcud koporativ mədəniyyətin öyrənilməsi mərhələsində əsas problem işlənmiş, uzunmüddətli inkişaf strategiyasının və müəyyənləşdirilmiş dəyərlərin əsas fikirlərinin ayrılıqlarının olması ilə ilə ortaya çıxır. Belə bir uyğunsuzluq təşkilatın mövcudluğunun mənası ilə bağlı əsaslı bir sual qaldırmaqla yanaşı, insanı gələcək perspektivləri barədə düşünməyə vadar edir. Bir çox hallarda təşkilatlarında koporativ mədəniyyətin ən problemli mövqeləri ya menecerlər tərəfindən görünmür, ya da böyük maliyyə yatırımlarına ehtiyac olduğu üçün qəsdən nəzərə alınmır. Bu problem xidmət sektorunda qlobal xarakter daşıyır, lakin hər təşkilat subyektiv olaraq həll yoluna yaxınlaşır. Koporativ mədəniyyətin və korporativ ruhun formalaşmasının ilkin mərhələlərində təşkilati səhvlərə yol verildiyi təqdirdə müsbət dəyərlər, prinsiplər və normalar zərər görəcəkdir. Koporativ mədəniyyətin təsirinin uğurunu dəyərləndirərkən yalnız rəhbərliyin deyil, həm də təşkilatın işçilərinin fikirlərini nəzərə almaq lazımdır. Bu mərhələdəki problemin həlli , görülən tədbirlərin və tətbiq olunan dəyişikliklərin təsirinin qiymətləndirilməsinin subyektivliyidir. Aktual problerdən biridə müəssisənin gündəlik həyatında aktiv iştirak etməyən xidmət təşkilatlarının rəhbərləri maliyyə baxımından proseslərin obyektiv qiymətləndirmək qabiliyyətinə malik olmamasıdır. Korporativ mədəniyyətin formalaşmasında həlledici amil şirkətin fəlsəfəsi və ya başqa sözlə şirkət rəhbərliyinin izlədiyi prinsiplərdir. Korporativ mədəniyyət post-sənaye dövrün fenomeni olaraq öz dərk etməsini və post-klassik elmi paradiqmanın müddəalarına əsaslanan yeni idarəetmə metodologiyasının formalaşmasını tələb edir.

**Açar sözlər: Korporativ mədəniyyət, aktual problem, şirkət, davranış, dəyər, metod.**

# Müəssisədə İnvestisiya Prosesinin və Onun Uçotunun Təhlili Məsələlərinin Tədqiqi

**Xıdır Cəfərov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
"İnvestisiya" anlayışı çoxdan dünya iqtisadiyyatı anlayışına daxil olsa da, milli iqtisadi ədəbiyyatda uzun müddət "investisiya" termini "kapital qoyuluşları"kimi başa düşülürdü. Başqa sözlə, "investisiya" termini çox dar mənada müəyyən edilmişdir: sənayeyə, tikintiyə, kənd təsərrüfatına, nəqliyyata, ticarətə və iqtisadi fəaliyyətin digər sahələrinə uzunmüddətli kapital qoyuluşları şəklində xərclərin məbləği.
Fəaliyyət demək olar ki, hər bir dövlətin, müəssisənin və ya digər dərəcədə bağlıdır investisiya fəaliyyəti. Demək olar ki, hər gün şirkət həll investisiya məsələləri. Resursların məhdudluğu və onlara olan tələbatın daim inkişaf etdirilməsi cəmiyyətdən xarici və daxili resursların cəlb edilməsi yollarını axtarmağı tələb edir. Dünya iqtisadiyyatına inteqrasiya milli iqtisadiyyatın beynəlmiləlləşdirilməsinə gətirib çıxarır ki, bu da öz növbəsində beynəlxalq iqtisadi münasibətlərin əsasını qoyur. Azərbaycanda iqtisadi islahatların aparılması ölkə iqtisadiyyatına xarici və daxili kapitalın cəlb edilməsi praktikasının təkmilləşdirilməsi və təhlilini, həmçinin investisiya mühitinin daha da sabitləşdirilməsini tələb edir. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının ayrılmaz hissəsidir, unikal iqtisadiyyatı, milli çalarlarla zəngin olan hissəsidir. Bu cür xüsusiyyətləri və zənginliyi öyrənmək, dünya iqtisadi sistemində yerini və yerini müəyyənləşdirməyə kömək edə bilər. Əlbəttə ki, bu xüsusiyyətlə zənginlik arasında investisiyaların, xüsusilə uzunmüddətli investisiyaların yeri və əhəmiyyəti vardır.
Azərbaycan Respublikasının bazar iqtisadi münasibətləri sisteminə keçməsi bir çox problemlər yaratmışdır. Bununla əlaqədar olaraq magistr dissertasiyasının mövzusu aktual məsələyə həsr olunub. Tədqiqatın məqsədi uzunmüddətli investisiyaların təhlili və təkmilləşdirilməsi istiqamətlərini təhlil etmək, onların uçotunu Milli və beynəlxalq mühasibat standartlarına uyğun təşkil etmək, onların mənbələrini və Mühasibat uçotu problemlərini müəyyən etməkdir.

**Açar sözlər: İnvestisiya, uçot, müəssisənin maliyəsi, Azərbaycan iqtisadiyyatı.**

# Türkiye'de Deniz Turizmi Açısından Marina İşletmeciliğinin Yeri ve Önemi

**Mehmet Marangoz**
**Tuğçe Merve İnak Özberk**
**Muğla Sıtkı Koçman Üniversitesi**

**Özet**

Türkiye, deniz turizmi bakımından son derece önemli bir coğrafya üzerinde yer almaktadır. Deniz turizmi içerisinde önemli bir yere sahip olan marinacılık sektörü, ulusal ve uluslararası ölçekte deniz turizmi çerçevesinde güncel marina yatırımlarıyla sürekli gelişme gösteren ve büyüyen bir hizmet sektörü olarak görülmektedir. Özellikle deniz turizmi bileşenleri içerisinde önemli bir hizmet işletmesi olan marinalar, günümüzde bağlama kapasitelerinde görülen sürekli artış nedeniyle yoğun rekabet ortamı içerisinde müşterilerine hizmet vermeye çalışmaktadır.

Günümüz marina müşterilerinin; marinalarda yatlarını korunaklı bir yerde barındırmak, yakıt gıda, su, atık boşaltımı ve elektrik gibi temel ihtiyaçlarını gidermek için marinaları tercih etmelerinin yanında, alışveriş merkezinden restoranlara, sinemadan spor salonlarına kadar hemen hemen tüm sosyal aktivitelerini de gerçekleştirebilecekleri turistik tesislere dönüşen marinalardan hizmet almayı tercih ettikleri görülmektedir.

Bu çalışmada, deniz turizmi bağlamında marina işletmeciliği ve Türkiye'de marinacılık sektörü hakkında genel bilgi verilerek, deniz turizmi içerisinde marina işletmelerinin yeri ve önemi değerlendirilmektedir. Sonuç olarak, deniz turizmi bileşenleri içerisinde marina işletmelerinin gerek kuruldukları yerlere gerekse hizmeti satın alanlara ekonomik ve sosyo-kültürel birçok konuda fayda sağladığı görülmektedir. Marinalarda sunulan hizmetlerin emek-yoğun nitelikte olması, kuruldukları bölgelerde istihdamı olumlu etkilemesi ve buna bağlı olarak gelir-istihdam çarpan etkisiyle marina işletmelerinin ekonomik anlamda faydasını ortaya koymaktadır. Ayrıca marina işletmelerinde farklı milletten birçok yatçının bir arada vakit geçirerek o bölgede yaşayan yerel halk ile ticari ve sosyal ilişkiler geliştirerek etkileşim içerisinde olması, sosyo-kültürel açıdan da marinaların kattığı değeri göstermektedir.

**Anahtar kelimeler: Deniz turizmi, marina işletmeleri, marinalarda sunulan hizmetler.**

# İşğal Nəticəsində Yaranan Zərər və İtkilərin İqtisadi Qiymətləndirilməsi Standartları

**Zaur Həbibov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İşğal nəticəsində hər hansı ölkəyə vurulan zərərin qiymətləndirilməsi metodologiyası və standartlarının işlənilməsi işğalçı tərəfin beynəlxalq qanun və konvensiyalar çərçivəsində "cəzalandırılması"na xidmət edir.Bu məsələ Azərbaycan reallığında olduqca əhəmiyyətlidir.Ona görə ki, uzunmüddətli işğal dövründə məruz qaldığımız itkilərin dəyərinin beynəlxalq ictimaiyyət qarşısında sübut olunması üçün vahid qiymətləndirmə standartlarının işlənilməsi və tətbiqi zəruridir. Bu baxımdan müvafiq standartların işlənilməsi yalnız milli deyil, həm də beynəlxalq məsələ hesab olunur. Standartların işlənilməsində əsasən müşahidə, sorğu, müqayisə, iqtisadi təhlil və sintez metodlarından istifadə olunması nəzərdə tutulur. Onların tətbiqi ilə bu günə qədər dolğun cavabları axtarılan "İnsan tələfatı, mənəvi zərərlər və dolayı itkilər hansı metodlar əsasında qiymətləndirilməlidir?" kimi suallara aydınlıq gətirilməlidir. İşlənib hazırlanmış qiymətləndirmə standartları beynəlxalq səviyyədə tanınmaqla bir ölkənin digərinə qarşı ərazi iddiası sürməsi, onun maddi və mənəvi sərvətlərinə külli miqdarda ziyan vurması ilə nəticələnən işğalçılıq hərəkətlərinin qiymətləndirilməsində tətbiq olunmalıdır.

**Açar sözlər: Qiymətləndirmə, dəyər, zərər, standart, risk.**

# İstehlakçı Davranışı Modellərinin Təhlili və Azərbaycanın İstehlak Məhsulları Bazarına Tətbiqi

**Yetər Xəlilova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Hər hansı bir təşkilatın məhsul buraxmazdan əvvəl istehlakçı davranışını başa düşməsi vacibdir. Təşkilat bir müştərinin müəyyən bir məhsula necə reaksiya verəcəyini təhlil edə bilmirsə, şirkət zərər görəcəkdir. İstehlakçı davranışı çox mürəkkəbdir, çünki hər bir istehlakçı məhsulu almaq, istehlak etmək və atmaq barədə fərqli düşüncə və münasibətlərə sahibdir. İstehlakçı davranış nəzəriyyələrini və konsepsiyalarını anlamaq məhsul və ya xidmətləri uğurla bazara çıxarmağa kömək edir. Üstəlik, istehlakçı davranışını öyrənmək bir çox cəhətdən kömək edir. Həyat standartlarında, meyllərdə, dəbdə və texnologiyada daim bir dəyişiklik olduğu üçün; istehlakçının məhsul almağa olan münasibəti dəyişir. Günümüzdəki rəqabətli iş mühitində bir çox fərqli göstərici iş performansını təsir edir. Bu araşdırmada müəlliflər şirkətin ən vacib tərəflərindən birini - müştərilərini təhlil edirlər. Tədqiqat mövcud istehlakçı davranış modellərinin qiymətləndirilməsi və təhlilinə əsaslanır.Tədqiqatda mövcud istehlakçı davranışı modelləri araşdırılıb,müqayisəli təhlil edilərək,yerli və dünya bazarına tətbiqi araşdırılması nəzərdə tutulub.Mövcud İstehlaçı davranışı modellərini araşdıraraq,onlarla tanış olmaq,yerli bazarı daha yaxşı tanımaq və mümkün olam imkanlardan daha yaxşı istifadə etməyə,həmçinin var olan lakin diqqətdən kənar qalan imkanlara nəzər yetirməyə bizə imkan verəcəkdir.

**Açar sözlər: İstehlakçı davranışı, istehlakçı davranışı modelləri, alış prosesi.**

# Qlobal İstiləşmənin Qlobal ÜDM-ə Təsiri

**Tural Abdurəhimov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Qlobal istiləşmə son onilliklərdə dünyanı təhdid edən ən mühüm məsələlərdən birinə çevrilmişdir. Elmi diskursda qlobal istiləşmə ilə bağlı fikirlərdə müəyyən təzadlar və ziddiyyətlər olsa da, ümumi götürdükdə dünyanın qəbul edilmiş elm adamları, ekoloqlar, peşəkar mütəxəssislər qlobal istiləşmənin dünya iqtisadiyyatına təsirini də mühüm bir məsələ kimi vurğulayırlar. Bu məqalədə qlobal istiləşmənin qlobal ümumdaxili məhsula təsirindən bəhs edilmişdir.

**Açar sözlər: Qlobal istiləşmə, inkişaf etməkdə olan ölkələr, qlobal ÜDM, inkişaf etmiş ölkələr, kənd təsərrüfatı.**

# Daxili Audit və Daxili Nəzarətin Formalaşmasının Nəzəri Aspektləri

**Hüseyn Həşimli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Müasir dövrdə kommersiya müəssisələrinin həm ölçüsü, həm də mürəkkəbliyi əhəmiyyətli şəkildə artmışdır. Belə olduğu halda müəssisələrin daxili nəzarət və korporativ idarəetmə sistemləri tətbiq etmədən düzgün şəkildə idarə edilməsi mümkün deyildir. Bu sistemlər fəaliyyətin səmərəlilik və effektivliyini, bütün müvafiq qanunlara uyğunluğunu təmin etməklə yanaşı, təşkilatın lazımı səviyyədə idarə edilməsini və ona nəzarəti təmin edir. Daxili nəzarət sistemi müəssisələrdə saxtakarlıq və xəta risklərini azaltmaq, müəssisənin fəaliyyətini real iş diapazonu çərçivəsində saxlamaq üçün həmin müəssisənin fəaliyyətinin, işinin və aktivlərinin istiqamətləndirilməsi, nəzarət altında saxlanılması və qorunması deməkdir.

**Açar sözlər: Daxili audit, maliyyə nəzarəti, daxili nəzarət, cari nəzarət, hesabatarın təhlili.**

# Формирование и Развитие Стратегического Маркетинга в Азербайджанских Банках

**Кянан Алиев**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
Самым важным компонентом национальной экономики каждой страны является банковская система, призванная способствовать макроэкономическому развитию и полностью удовлетворять растущий спрос на услуги. Сегодня невозможно представить динамично развивающуюся экономику без динамично развивающейся банковской системы. Успех банка в современных условиях определяется степенью адаптации к быстро меняющейся внешней среде. Важным элементом построения действительно эффективных взаимоотношений между банком и потребителями является разработка методов оказания услуг, что подразумевает не только изменение существующих технологий, но и внедрение новых. Банковский маркетинг становится одним из основных инструментов повышения качества обслуживания. Разработка и реализация эффективной маркетинговой политики, направленной на привлечение большего числа клиентов, является основным направлением коммерческих банков на текущем этапе развития. В качестве финансовых посредников среди субъектов рыночных отношений банки являются прямыми участниками финансового рынка, который отвечает за управление ликвидностью, надежностью и конкурентоспособностью местных банков на основе развития нестабильности мировой финансовой системы. рынок маркетинговых услуг и поиск новых инструментов для удовлетворения спроса, а также для обеспечения стабильного предложения, ресурсов и новых продуктов для клиентов. Цель исследования связана с динамичным развитием банковской системы Азербайджана и необходимостью теоретического понимания роли маркетинговой деятельности в деятельности коммерческих банков.

**Ключевые слова: Банковский маркетинг, финансового рынка, маркетинговых услуг, коммерческих банков.**

# Belediye Etkinliğinin Stokastik Sınır Analizi: Azerbaycan Örneği

**Fuad Selamzade**
**Muş Alparslan Üniversitesi**
**Alig Bağırov**
**Azerbaycan Teknoloji Üniversitesi**

**Özet**

Çalışmada Azerbaycan'daki 55 belediyenin etkinliklerinin parametrik Yöntem olan Stokastik Sınır Analizinin En Küçük Kareler yöntemi ile belirlenmesi amaç edinmiştir. 2015 yılını kapsayan veriler Azerbaycan Cumhuriyeti Devlet İstatistik Komitesinden elde edilmiştir. Analizlerin yapılması için beş farklı model oluşturulmuştur. Çalışma sonucunda Azerbaycan Cumhuriyeti devlet bütçesinden belediyelere verilen sübvansiyonların ve belediye mülkiyeti ve arazisinin kiralanmasından elde edilen gelirlerin belediye giderlerinin karşılanması için yapılan harcamaları ve belediyelerin toplam harcamalarını artırdığı tespit edilmiştir.

**Anahtar Kelimeler: Azerbaycan, belediye, stokastik sınır analizi, Azerbaycan ekonomisi.**

# Azərbaycanın Maliyyə Bazarlarının Müasir Vəziyyətinin Təhlili (Nəzəri Aspektdə)

**Emil Novruzov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Maliyyə – pul vəsaitləri fondlarının bölgüsü, yenidən bölgüsü və istifadəsi ilə əlaqədar yaranan münasibətlər sistemidir. Bu münasibətlər dövlətlə hüquqi və fiziki şəxslər, həmçinin dövlətlər arasında baş verə bilər.

İqtisadiyyatda maliyyə bazarları dedikdə qiymətli kağızlarla, xüsusən səhm və istiqrazlarla, əmtəə ilə, məsələn, qiymətli materiallarla, yaxud kənd təsərrüfatı məhsulları ilə və həm də qarşılıqlı əvəz edilən aktivlərlə ticarəti təmin edən mexanizm başa düşülür.

Son illərdə maliyyə bazarları kəmiyyət və keyfiyyətcə sürətlə inkişaf etmiş, bütövlükdə likvidliyi yaxşılaşdırmaq məqsədilə daima innovasiya səviyyəsində olmuşdur. Müasir durumda maliyyə bazarını bir anlayış kimi müəyyən etmək elə də asan deyildir. Çünki, bir çox hallarda bu məsələ qarışıqlıq yaradır.

Maliyyə bazarlarına maliyyə məhsulunun satışına yardım edən təşkilati struktur kimi (məsələn, fond birjası) baxmaq olar. Bundan əlavə, maliyyə bazarları dedikdə ilkin olaraq maliyyə məhsullarının satış yeri və ya satıcı ilə alıcıların qarşılıqlı əlaqəsinin bir üsulu başa düşülür. Bu, birja, bilavasitə əlaqə və s. formasında ola bilər.

Məqalədə maliyyə bazarları nəzəri cəhətdən araşdırılır, müxtəlif iqtisadçı alimlərin elmi əsərlərindəki fikirləri nəzərdən keçirilir. Məqalədə həmçinin, Azərbaycan maliyyə bazarlarının müasir vəziyyəti, onların iqtisadiyyata təsiri və formalaşmasının təhlili aparılmışdır.

Məqalədə istinad etdiyimiz iqtisadçı alimlər maliyyə bazarlarını təhlil etmiş, Azərbaycandakı maliyyə bazarlarının xüsusiyyətlərini araşdırmış və təhlil etmişlər.

**Açar sözlər: Maliyyə bazarları, Azərbaycan maliyyə bazarları, maliyyə bazarının müasir vəziyyəti, maliyyə bazarının iqtisadiyyata təsiri.**

# Applicatıon of Financial Analysis Techniques in Insurance Companies: Example of Eurasian Insurance Company

**Zhanar Mutayeva**
**Kazakh Ablai Khan University of International Relations and World Languages**

**Abstract**

Accounting accounts, financial statements and interpretations of companies are of great importance in the insurance industry, which is an important part of the financial system. Today, the insurance sector is a prominent sector and it is different from other sectors. This difference is reflected in insurance accounting and financial statements.

Studies regarding the financial adequacy of insurance companies are used to minimize the risk of companies not fulfilling their financial obligations to policyholders. While it is not possible to completely eliminate this risk, many countries have set minimum qualification criteria to deal with financial adequacy results.

The aim of the research is to explain the benefits of using financial analysis techniques in insurance companies and to explain this better by making trend, horizontal and vertical analysis of the financial statements of Eurasian insurance company. The sample application aims to assist financial statement users who want to analyze insurance companies with analysis results and comments prepared using the balance sheets and income statements of the industry's leading companies.

**Keywords: Insurance Companies, Financial Analysis, Eurasian Insurance Company**

## Turizm İqtisadiyyatı və Turizm Siyasəti

**Günel Əliyeva**
**Azərbaycan Turizm və Menecment Universiteti**

**Xülasə**

Məqalədə turizmin iqtisadi əhəmiyyəti, turizm siyasətinin həyata keçirilməsinin başlıca mexanizmləri və prinsipləri, Azərbacanda turizmin mövcud vəziyyəti və s. analiz olunur. Ümumiyyətlə, ölkələrdə iqtisadi böhranı yumşaltmaq və iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək baxımından turizm çox əhəmiyyətli bir vasitədir. Turizm əhalinin məşğulluğunu təmin etməklə zəruri bir funksiyanı icra etmiş olur. Hazırda dünyada 260 milyondan çox insanın bu işlə məşğul olduğu məlumdur. Turizm bu gün ən sürətlə inkişaf edən sahələrdən birinə çevrilmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əhəmiyyətli bir iqtisadi fəaliyyət, iqtisadi artım və inkişafın ən vacib mənbələrindən biri olaraq görülür. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatlarına görə, 2007-ci ildə beynəlxalq turist sayı 903 milyon nəfərə, beynəlxalq turizm gəliri isə 856 milyard ABŞ dollarına çatmışdır. Daxili turizm hərəkətlərini və xərclərini nəzərə alsaq, bu məlumatların daha da artacağı şübhəsizdir. ÜTT-yə görə, bu rəqəmlərin 2050-ci ildə 2 milyard insan və 2,1 trilyon dollar olacağı proqnozlaşdırılır. 2050-ci ildə qlobal daxili və beynəlxalq turizm gəlirlərinin ümumilikdə 24,2 trilyon dollara çatacağı gözlənilir.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, isə 2019-cu ildə Azərbaycana 3 milyon 170,4 min nəfər turist gəlib ki, bu da 2018-ci ilin göstəricisindən 11,3% çoxdur.

**Açar sözlər: Turizm məhsulu, iqtisadiyyat, səyahət, turizm siyasəti.**

# Main Directions for Improving And Increasing The Financing Efficiency of Small and Medium Enterprises in Azerbaijan

**Ayten Mekhraliyeva**
**Azerbaijan State University of Economics**

**Abstract**
The main purpose of the paper is to identify issues of financing small and medium enterprises in Azerbaijan in a market economy, to analyze the current situation and identify areas for improvement, and to develop a scientific concept to increase the efficiency of their financing. The research process examined the objectives and achieved certain results, the formation of entrepreneurship in the economic development of Azerbaijan in general, especially small and medium enterprises, the study of their sources of funding and the experience of other countries. Then, the results of these studies were compared and shortcomings in the financing mechanisms were identified, the current state of entrepreneurship in the country was analyzed, the current state of the mechanisms used in its financing was studied, and state aid in this area was analyzed. As a result of the above-mentioned analyzes, ideas were put forward to improve the existing mechanisms and increase their availability. Proposals for the use of underdeveloped and even unused financing mechanisms in our country have been developed and justified. The results obtained from the research process can be important for individuals and legal entities who continue to operate in our country or are new in this field. Thus, the analysis carried out in the course of the work showed the current state of small and medium-sized businesses operating in the country, revealed shortcomings in their financing.

**Keywords: Small and medium-sized business, entrepreneurship, financing methods, assets, Covid-19 pandemic.**

# Bank Sistemində Maliyyə Menecmentinin Təkmilləşdirilməsində Strateji İdarəetmənin İstiqamətləri

**Cavad Zərgərli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə banklarda maliyyə menecmentinin formalaşdırılmasında strateji idarəetmənin istiqamətləri araşdırılmış, bank sistemində strateji idaetmənin mahiyyəti və əsas yönləri öyrənilmişdir. Müasir mühitin dəyişkənliyi yeni biliklərin kütləvi texnologiyalara sürətlə çevrilməsi ilə xarakterizə olunur. Eyni zamanda, bazar, kommersiya və elmi informasiyanın yayılması və əldə edilməsi imkanları prinsipial şəkildə dəyişmiş, bu da iqtisadi, sosial və siyasi böhranların müasir dövrün normasına çevrilməsinə gətirib çıxarmışdır. Bütün bunlar strateji menecment konsepsiyasını əks etdirən təsərrüfat subyektlərinin idarəetmə sistemlərinin qurulmasına yeni yanaşmalarının işlənib hazırlanmasını tələb edir, həmçinin şirkətin dəyəri və sabitliyi olan bu sistemin inteqrasiya funksiyasını həyata keçirən maliyyə idarəetməsinin xüsusi rolunu müəyyən edir. Məqalənin əsas məqsədi müasir şəraitə uyğun olan kredit təşkilatının adaptiv və inteqrasiya olunmuş strateji maliyyə idarəetmə sisteminin konsepsiyasını hazırlamaqdır. Bunun üçün bu sistemin əsas elementlərini, metodik və informasiya infrastrukturlarını, eləcə də bu konsepsiyanın həyata keçirilməsini təmin edən proseslərin təşkilinə əsas yanaşmaları müəyyən etmək lazımdır.

**Açar sözlər: İnteqrasiya, maliyyə menecmenti, strateji idarəetmə, alt sistem, bank sektoru.**

# İşletmelerde Psikolojik Sözleşme İhlalinin İşten Ayrılma Niyeti Üzerindeki Etkisi

**Surac Bayramov**
**Edip Örücü**
**Bandırma Onyedi Eylül Üniversitesi**

**Özet**

Bu araştırmanın amacı, psikolojik sözleşme ihlalinin işten ayrılma niyetini etkileyip etkilemediğini belirlemektir. Araştırmanın evrenini Eskişehir / Tepebaşı ilçe merkezinde çalışmakta olan yaklaşık 400 gıda sektörü çalışanı oluşturmaktadır. Araştırmaya 121 gıda sektörü çalışanı dahil edilmiş ve analize tabii tutulmuştur. Bu çalışma nicel bir çalışmadır. Araştırma kapsamında toplanan veriler bir paket programı aracılığı ile analiz edilmiş ve yorumlanmıştır. Araştırma hipotezlerini test etmek amacıyla çalışmada korelasyon ve regresyon analizleri yapılmıştır. Araştırma sonucunda psikolojik sözleşme ihlalinin, çalışanın işten ayrılma niyetini etkilediği görülmüştür.

**Anahtar Kelimeler: İşten ayrılma niyeti, psikolojik sözleşme.**

## Yerli Özünü İdarəetmədə Beynəlxalq Təcrübə və Onun Əsas İnkişaf İstiqamətləri

**Möhübəli Əliyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Məqalədə yerli özünü idarəetmədə beynəlxalq təcrübə öyrənilmiş və onun əsas inkişaf istiqamətləri araşdırılmışdır. İlk olaraq qeyd edək ki, bələdiyyə ərazilərin kompleks idarəetməsidir ki, onların səlahiyyətləri çərçivəsində sosial-iqtisadi baxımdan layihələr işlənib hazırlanır və eyni zamanda reallaşır.Yerli özünüidarə sahələrində sosial-iqtisadi layihələrin reallaşmasının aktuallığı eyni zamanda, regionların inkişafında keyfiyyət dəyişiklərinin olması ilə bağlıdır. İslahatların başlanğıcı regionlarda vəziyyətin differensiallaşmanın güclənməsinə xidmət edir ki, bu da bölgələr arasındakı sosial amillərin kəskinləşməsinə gətirib çıxarmış, həmçinin bazar məkanlarının seqmentləşdirilməsi prosesinin vüsət almasına və bölgələrin inkişafına rəvac vermişdir.

Ölkədə yerli özünüidarəetmənin formalaşması əsas problemlərdən biridir onların qanunlarla bərabər uyğunlaşması idarə olunması əsas problemlərdən biridir. Əsas demokratik dövlətin önəmli vəzifəsi olaraq vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli mühit formalaşdırmaqdır. Bu halda rasional quruluş olan güc və nəzarət sisteminin yaranması üçün azaldılır ki, bu da öz növbəsində effektiv şəkildə həll olunacaqdır. Mərkəzləşdirilmiş resursların iştirakı ilə yalnız milli səviyyədə həll oluna biləcək problemlər var. Bu əsas problemlər arasında tam hüquqlu yerli özünüidarə sisteminin yaranması və hüquqi çərçivənin formalaşması, dövlət siyasətinin işlənib hazırlanması, həyata keçirilməsi, cəmiyyətin hüquq, azadlıqlarının konstitusiya tanınması onların təmin olunması, qanun və qaydada hökumət proqramlarının qəbul edilməsi, onların reallaşması və s. Daxildir. Bu problemlərin öyrənilməsində Abdullayev.R., Ağalarlı.P., T.Ə.Quliyev, Ə.M.Əliyev, Əzizova G.A., Həsənoğlu.M., başqalarının əsərlərindən, məqalələr və digər akademik qaynaqalardan istifadə edilmişdir.

**Açar sözlər: Rəqabətqabiliyyətlilik, beynəlxalq təcrübə, inkişaf pirioritləri, yerli özünü idarəetmə, multikulturalizm.**

# Konsolidə Edilmiş Maliyyə Hesabatlarinin Formalaşdirilma Mərhələlərinin Əsas İstiqamətləri

**Jalə Hüseynova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə konsolidə edilmiş maliyyə hesabatlarının formalaşma mərhələləri müzakirə olunur, ən vacib mərhələlər ətraflı öyrənilir. İqtisadiyyatın inkişafı və səmərəliliyinin artması nəticəsində milli gəlirin artması və bunun əsasında əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, müəssisələrdə istehsalın davamlı davam etdirilməsi və s. müəssisələrin maliyyə vəziyyəti səviyyəsində. Demək olar ki, bütün iri şirkətlər konsolidasiya edilmiş hesabatlar təqdim etməlidirlər və onların hazırlanması proseduru həm hazırlıq prosesi ilə məşğul olan mütəxəssisləri, həm də məlumat istehlakçılarını narahat edir, çünki qərarlarının dəqiqliyi onların etibarlılığından çox asılıdır.
Aktiv davam edən biznesin yenidən qurulması prosesləri ilə əlaqəli bazar münasibətlərinin inkişafının müasir şəraitində ənənəvi olaraq mümkün olan çox səviyyəli əsas və köməkçi şirkətlərin birləşməsi kimi qəbul edilən şirkət qrupları şəklində kompleks təşkilati sistemlərin yaradılması prosesi inteqrasiya sistemi üçün getdikcə daha çox qəbul edilir. Aralarındakı sıx iqtisadi və hüquqi münasibətlər, kapitalın cəmləşmə dərəcəsi və ölkə iqtisadiyyatının inkişafındakı artan rolu, onlara tənzimləmə və nəzarət etmək üçün dövlət və ya tənzimləyici orqanlar, dövlət və ya kredit təşkilatlarından daha çox diqqət və marağa səbəb olur. Hər hansı bir təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri barədə məlumat mənbəyi maliyyə hesabatlarıdır. Ancaq bir qrup şirkətdən bəhs edildikdə, qrupdakı hər bir şirkətin fərdi hesabatı, bütövlükdə qrupun nəticələri barədə bir fikir verməyəcəkdir. Bu, yalnız konsolidə edilmiş maliyyə hesabatlarının formalaşdırılması yolu ilə mümkündür.

**Açar sözlər: Maliyyə hesabatları, konsolidasiya, biznes, beynəlxalq standartlar, mühasibat uçotu.**

## Azərbaycanda Lisenziyası Ləğv Olunmuş Banklar və Onların Bağlanma Səbəbləri

**Elçin Cahangirzadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Bazar iqtisadiyyatı şəraitində hər bir ölkənin bank sektoru onun iqtisadi həyatında mühüm rola sahib olub, ölkə iqtisadiyyatının qan-damar sistemini təşkil edir. Bank sistemi iqtisadi sistemin ən mühüm elementlərindən biri, bəlkə də elə birincisidir. İqtisadiyyatın digər sahələri kimi bu sahə də hal-hazırda struktur, eləcə də funksiyalarla əlaqədar olaraq köklü dəyişikliklərə məruz qalmaqdadır. Dəyişikliklərin işlənib hazırlanması xarici təcrübə, keçirilən iqtisadi islahatların ilk illərinin təcrübəsi, bank müəssisələrinin mahiyyəti və təyinatı haqqında müasir təəssüratlar əsasında həyata keçirilən bank qanunvericiliyi tərəfindən təsbit edilir. Bank rəqabətinin güclənməsi, bank xidmətlərinin çesidinin artırılması, investisiyaların genişlənməsi və bank xidmətləri bazarında bu kimi digər meyllərin artması, dövlətləri bu sektorun inkişafı istiqamətində atılan addımların davamlılığının artırılmasına sövq edir. Bütövlükdə, effektiv fəaliyyət gösterən bank sektoruna, müasir tələblərə cavab verən maliyyə-kredit sisteminə və sərbəst rəqabətə əsaslanan bazar münasibətlərinin inkişafı həm dövlətdaxili iqtisadi inkişafa, həm də xarici iqtisadi əlaqələrin inkişafına zəmin yaradır.

Hadisələrin gedişatı Azərbaycan bank sektoruna da təsirsiz ötüşmür. Təəssüflər olsun ki, istər dünya, istərsə də ölkə miqyasında baş verən dəyişikliklərin Azərbaycan bank sektoruna təsiri həmişə müsbət deyildir. Ölkədə baş verən devalvasiya, neft qiymətində olan enib-qalxmalar, xüsusən də son 1 il ərzində bütün dünyada yayılan və iqtisadi mexanizmə ciddi şəkildə zərbə vuran pandemiya Azərbaycan bank sektoruna da öz mənfi təsirini göstərmişdir və hətta, bəzi bankları öz fəaliyyətini dayandırmaq təhlükəsi ilə qarşı-qarşıya qoymuşdur.

Hal-hazırda ölkə gündəmində olan aktual mövzulardan biri məhz bankların finansal vəziyyətidir. Bu da hazırki vəziyyətdə bankların mövcud durumunu qiymətləndirməyi və fəaliyyətinə xitam verilmiş bankların bağlanma səbəblərini araşdırmağı faydalı edir.

**Açar sözlər: Maliyyə böhranı, devalvasiya, pandemiya, dəyişkən neft qiymətləri.**

# Naxçıvan MR-da ilk dəfə Olaraq Aqrar İslahatlara Başlanması və Onun Ölkə Miqyasında Davam Etdirilməsi

**Röya Sultanova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə kənd təsərrüfatının Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında mühüm yeri ümumiləşdirilmişdir. Aqrar islahatın beşiyi olan Naxçıvanda islahatın hüquqi bazasının yaradılması, torpaq islahatının reallaşdırılması prosesi təhlil olunmuşdur. İslahatın strateji hədəfinin bazar iqtisadiyyatına keçid olması əsaslandırılmışdır. Həyata keçirilən islahatların iqtisadi səmərəsi qiymətləndirilmiş,ölkə miqyasında aqrar dəyişikliklərə "yaşıl işıq" yandıran muxtar respublikanın təcrübəsi tədqiq olunmuşdur. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda start götürən islahatların respublika miqyasında davam etdirilməsi üçün yaranan ictimai-siyasi mühit dəyərləndirilmişdir. Ümummilli liderin xalqın tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycanın, eləcə də Naxçıvanın sosial-iqtisadi inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi siyasəti yeni mərhələyə daxil olmuşdur. Respublikada 1996-cı ildən başlanan torpaq islahatının 40-dan artıq fərman və hüquqi normativ aktı əhatə edən hüquqi bazası yaradılmışdır. Naxçıvanda keçmiş kolxoz və sovxozların torpaqlarının və əmlakının özəlləşdirilməsi respublikada miqyaslı tədbirlərlə konteksdə öyrənilmişdir. Yazdığımız bu məqalədə aydın görünür ki, ərzaq təhlükəsizliyinin təmini ancaq dayanıqlı olan kənd təsərrüfatının istehsalını aparmaqla, aqrar islahatların həyata keçırılməsi dinamikasını izləməklə əldə oluna bilər.

**Açar sözlər: Aqrar islahatlar, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, mülkiyyət münasibətləri.**

# COVID-19 Pandemiyasının Təhsil Xidmətlərinə Sosial-İqtisadi Təsirləri

**Mirlazım Dadaşov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
COVID-19 pandemiyası bütün sahələr üzrə xidmətlərə, o cümlədən təhsil xidmətlərinə də təsirsiz qalmır. Pandemiyanın geniş yayılmağa başlandığı dönəmdən bugünə qədər təhsil müəssisələrinin (uşaq baxçaları, məktəblər, kolleclər, universitetlər və s.) bağlanması və ləngimələrin olması sosial-iqtisadi cəhətdən müxtəlif təsirlər göstərməkdədir. Bir ildən artıqdır ki davam edən böhran vəziyyəti təhsildə yeni onlayn və ya distant təhsil adlanan eraya keçidi təmin etdi. Bunun fonunda cəmiyyətdə yeniliklərə keçiddə yaşanmış sosial-iqtisadi problemlərin bəziləri əksər ölkələrdə hələ də qismən və ya ümumiyyətlə həll olunmamışdır. Təhsildə başlanan yeni era cəmiyyətdə ilk öncə psixoloji mənfi təsirlərlə yadda qalsa da, artıq bəzi cəmiyyətlər bunun daha normal olduğunu qəbul edir və bəzi qənaətləri əsas kimi göstərirlər. İqtisadi sistemin güclü olması onlayn təhsilin daha effektli olması ilə düz mütənasiblik asılılığı özündə göstərir. Təhsillə bağlı təchizat məsələlərinin COVID-19 pandemiyası dövründə necə həll olunması ölkənin iqtisadi potensialının bilavasitə göstəricisidir. Məqalədə daha geniş şəkildə pandemiyanın təhsil xidmətlərinə olan birbaşa və dolayısı ilə sosial-iqtisadi təsirləri haqqında məlumat verilmişdir.

**Açar sözlər: Pandemiya, təhsil xidmətləri, yeni era, sosial-iqtisadi təsirlər.**

# Marketing Strategies in The Education Sector And A Research In The Chinese Market

**Ayoufu Dilina**
**Zhejiang University**

**Abstract**

In this study, marketing and service marketing strategies were investigated by a survey study on the education sector. The research's data was compiled via convenience sampling. The survey was conducted with students from Urumqi, China. A total of 250 questionnaires were prepared and distributed, and 240 cases were analyzed and analyzed. The collected data were mainly analyzed by reliability analysis, factor analysis, correlation analysis, t-tests and anova analyzes. Quality of service scale was used in the research. The results obtained for the quality of service differ according to demographic information. The evaluations obtained for the quality of service of the students on the education sector are explained in the research section with the tables.

**Keywords: Education sector, marketing, service marketing, marketing strategies.**

## Azərbaycan Respublikasının Sosial-İqtisadi İnkişafında Peşə Təhsili Müəssisələrinin Rolu

**İlham İlyasov**
**Mingəçevir Dövlət Universiteti**

**Xülasə**
Məqalədə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı, bu inkişafda peşə təhsilinin rolu haqqında məlumat verilmişdir. Peşə təhsilinin dolayısı ilə ölkə iqtisasdiyyatına, ÜDM-in artırılmasına təsirindən, sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün qanunvericilik bazası, dövlətin bu sahədə dəstək və inkişaf proqramları haqqında araşdırma aparılmışdır. Sosial-iqtisadi inkişafda peşə təhsili müəssisələrinin hansı rolu var və bu istiqamətdə fəaliyyət göstərməsinə hansı amillər təsir göstərir? Əsasən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri"ndə ölkənin sosial-iqtisadi inkişafına dair prioritetlərin reallaşdırılması üçün qarşıyan qoyulmuş məqsədlərdən, bu məqsədlər üzərindən peşə təhsilinin rolu göstərilmişdir. Bundan başqa oşəgötürənlərlə qarşılıqlı əməkdaşlıq istiqamətləri, büdcədənkənar vəsaitlərin artırılması yolları və bu məqsədlərə nail olmaq üçün görüləcək tədbirlər öz əksini tapmışdır.

**Açar sözlər: Sosial-iqtisadi inkişaf, peşə təhsili, sahibkarlıq fəaliyyəti.**

# Azərbaycanda Keçirilən Beynəlxalq Tədbirlərdə Milli Mədəniyyət Nümunələrinin Turizm Baxımından Tanıdılmasının Vacibliyi

**Rəna Rüstəmova**
**Azərbaycan Turizm və Menecment Universiteti**

**Xülasə**
Məqalə Azərbaycan mədəniyyətinin və onun turizm baxımından təbliği təhlil edilərək yazılmışdır. Məqalənin ilk hissəsində iqtisadiyyatın dayanıqlı inkişaf sektoru olan turizm haqqında söhbət açılıb. Burada turizmin tək iqtisadi cəhətdən deyil sosial, siyasi, mədəni təsirlərə malik olduğu qeyd olunub. Məqalənin növbəti hissəsində cəmiyyətin təkamülü və texnoloji inkişafın turizmə hansı cəhətdən yansıdığından bəhs edilmiş, turizmin növləri və formaları qeyd olunmuş, onlar arasındakı fərqlər göstərilmişdir. Yazının üçüncü hissəsində Azərbaycanın turizm sektorunun ümumi inkişaf xüsussiyyətləri haqqında danışılmışdır. Ümumilli liderin təməlini qoyduğu uğurlu və dayanıqlı inkişafın xarakteristikası göstərilmiş, onun layiqli davamçısı olan prezident cənab İlham Əliyəvin hakimiyyəti illərindən bugünə qədər turizmdə müşahidə olunan müsbət artım tempinin riyazi göstəriciləri əks olunmuşdur. Məqalənin digər bölməsində uğurlu siyasətin nəticəsi olan beynəlxalq tədbirlərə ev sahibliyi etmək üçün qət edilən yol haqqında danışılmışdır. Bundan başqa turizmin digər istiqamətlərdə inkişafına təkan verən növləri qeyd olunmuş və onlar haqqında məlumat verilmişdir. Yazıda qeyd olunan digər bir məqam turizm, milli mədəniyyət elementlərinin vəhdəti və onların dünyaya tanıdılması texnologiyası olmuşdur.

**Açar sözlər: Turizm, beynəlxalq tədbirlər, Azərbaycan mədəniyyəti.**

# Ölkə İqtisadiyyatının İnkişafında Yüngül Sənayenin Yeri və Rolu

**Kamran Əhmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məlumdur ki, yüngül sənaye maddi istehsalın bir sahəsi olaraq ictimai tələbatın ödənilməsində öz yeri və rolu ilə seçilən sahələrdən biridir. Yüngül sınaye müasir iqtisadiyyatda vacib rol oynayır. Onun əsas vəzifəsi əhalini sənaye və məişət təyinatlı əməələrlə və istehlak şeyləri ilə təmin etməkdir. Yüngül sənaye dedikdə müxtəlif xammal bazasından əhali üçün istehlka şeyləri istehsal edən sahələrin məcmusu başa düşülür. Belə ki, bu sahə istehsalları əhalini ayaqqabı, geyim, parça, və digər məmulatlarla təmin edən sahə və altsahələrdən ibarətdir. Belə ki, bu sahə emal sənayesinin tərkib hissəsi olaraq toxuculuq, xəz-dəri, gön-dəri, ayaqabı, tikiş və s. sahələri özündə birləşdirir. Məlumdur ki, yüngül sənaye otuza yaxın sahə və altsahələrdən ibarət olmaqla kənd təsərrüfatı, kimya və maşınqayırma sənayeləri və digər maddi və qeyri-maddi istehsal sahələri üçün sıx əlaqəli fəaliyyət göstərir. Yüngül sənaye kənd təsərrüfatında tədarük olunan çoxçeşidli məhsulları (xammalı) emal edir, kimya sənayesindən boyalar, maşınqayırma sənayesindən isə istehsal maşın və avadanlıqları alaraq istehsal proselərində tətbiq edir. Nəzərə almaq lazımdır ki, yüngül sənaye həmin resurslardan istifadə etməklə hazır məhsullar istehsal edərək sadalanan sahə müəssisələrini istehsal təyinatlı uyğun tələbat olan məhsullarla təmin edir.

**Açar sözlər: Yüngül sənaye, tekstil və toxuculuq sənayeləri, xammal.**

## Research on Emotional Labor Perception: An Implementation in Azerbaijan

**Leyla Sultanli**
**Azerbaijan State University of Economics**

**Abstract**
In addition to the physical and mental efforts of their human resources, the emotional efforts and efforts of the human resources have now become important for businesses that want to be successful in a competitive environment. This situation is observed especially in professions where face-to-face communication is intense.
